# Azərbaycanın qlobal nüfuzunun növbəti təsdiqi

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) evsahibliyi edəcək. 1995-ci ildən etibarən hər il keçirilən konfransda dünyanın iqlim dəyişikliyi ilə mübarizədə irəliləyişləri qiymətləndirilir. COP29-un gələn il Bakıda keçirilməsi Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində ölkəmizin beynəlxalq səviyyədə nüfuzunun günbəgün artdığını sübut edir.






Azərbaycanın belə nəhəng tədbirləri təşkil etmək üçün müasir infrastruktura və təhlükəsizliyə malik olması dünya ictimaiyyətinə məlumdur.

Bu mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Musa Qasımlı deyib ki, BMT-nin iqlim dəyişiklikləri üzrə toplantısının məhz Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisidir. Azərbaycanın belə toplantıları keçirməkdə böyük təcrübəsi var, ölkəmiz qlobal xarakterli mötəbər tədbirlərə yüksək səviyyədə evsahibliyi etmək bacarığını dəfələrlə nümayiş etdirib. Deputatın sözlərinə görə, iqlim dəyişikliyi ilə mübarizədə ən əhəmiyyətli beynəlxalq sənəd hesab olunan Paris Sazişinə bu günədək 195 ölkə, o cümlədən Azərbaycan da qoşulub. Deməli, COP29 Konfransında 195 dövlətin nümayəndəsinin Bakıya gəlməsi Azərbaycan dövlətinə inam, etimad və hörmətin nümunəsi olacaq.

Musa Qasımlı vurğulayıb ki, dünyanın ən mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə evsahibliyi etməyimiz Prezident İlham Əliyevin beynəlxalq nüfuzu ilə bağlıdır: "Bu bir daha sübut edir ki, dövlət başçımız dünya ölkələrinin rəhbərləri və xalqları tərəfindən XXI əsrin görkəmli dövlət xadimi kimi qəbul edilir. Prezidentimizə inanır, ona etimad göstərir və güvənirlər. Belə bir toplantının Bakıda keçirilməsi İlham Əliyevin qlobal səviyyədə etimad göstərilən lider olduğunu bir daha təsdiqləyir".

Deputat onu da qeyd edib ki, Azərbaycanın COP29-a evsahibliyi xarici siyasətimizin ən böyük uğurlarından biri kimi dəyərləndirilməlidir. Azərbaycana qarşı çirkin kampaniyaların intensivləşdiyi bir vaxtda belə uğura imza atmağımız xüsusilə vacib idi. Ona görə də Prezident İlham Əliyevin bu təşəbbüsü də əvvəlkilər kimi ölkəmizin qüdrətini bütün dünyaya nümayiş etdirdi.

***N.QABİLQIZI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 13 dekabr, № 272.- S.5.